# *MÜƏLLİMİN ÖZÜNÜTƏHSİLİ ÜÇÜN*

## Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ordu quruculuğu

**Jalə Mürsəlli**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** aghaevajale@gmail.com

**Rəyçilər:** t.ü.f.d., dos. Ə.B. Ələkbərov,
t.ü.f.d., dos. S.X. Məmmədova

**Açar sözlər:** türklər, dövlət, torpaq, ordu, strategiya, hərb
**Ключевые слова:** тюрки, государство, земля, армия, стратегия, воин
**Key words:** Turks, state, land, army, strategy, warfare

Türklər mövcudluqlarının ta əvvəllərindən idarəçilik təcrübərlərinə malik olmuş, çox erkən zamanlarda özləri ilə birlikdə digər ulusları da idarə etmişlər. Bu idarəçiliyin əsasını türklər öz ordulaırna borcludur. Yaşam təzri ilə bağlı olaraq Türklər daima yeni torpaqlar kəşf etməli və həm də nəticədə fəth etməli olmuşlar. Orta əsrin sonlarına yaxın Ağqoyunlu və Qaraqoyunlu orduları özlərindən əvvəlki türk dövlətlərinin ordu təşkilatını, taktika və staratejiyasını yaşatmaq və inkişaf etdirməklə həm bir-birlərinə, həm də digər dövlətlərə qarşı vuruşmuşlar.

Qaraqoyunlu ordusu

Qaraqoyunlu ordusu (dövlətin əsl adı Baranlılar dövlətidir) haqqında mənbələrdə çox az məlumat olsa da onlar tərəfindən müxtəlif zamanlarda aparılan döyüşlər qaraqoyunlularda ordu təşkili, tatktika və startegiya haqqında müəyynə qədər məlumat verir. Qaraqoyunlu ordusu ilə Ağqoyunlu ordusu arasında müəyyən bir uyğunluq var idi. Bu iki dövlətin ordu təşkili bir birinə çox bənzəyirdi. Lakin əsas fərqlərdən biri orduların fərqli türkmən boylarından təşkil edilməsi idi.

Qaraqoyunlu ordusunun qüdrəti Cəlairilər ilə aparılan mübarizələrdə özünü göstərir. XIV əsrin güclü ordularında olan Cəlairi ordusu dəfələrlə qaraqoyunlu ordusuna yenilir və qaraqoyunlular Cəlairiləri Təbrizdən çıxarmağa nail olurlar.

Qaraqoyunlu ordusunu təşkili Qara Məhmət zamanında başlanmışdı. Onun Naxçıvan ərazisində Cəlairi Şeyx Əli ilə apardığı müharibədə qaraqoyunlu ordusunun taktika və texnikası nə qədər inkişaf etdiyi məlum olur.

Qara Yusif zamanında dövlətin ordusu qüdrət və cəngavərliyi ilə seçilirdi. Məhz bu dövrdə ordu böyük bir dövlətin yaradılmasına nail oldu. Təbriz dövlətin mərkəzi oldu. Qara Yusifin əsasını qoyduğu bu ordu dövrünün ən güclü və işğalçı dövlətlərindən olan Teymurilər dövlətinin ordusu ilə dəfələrlə müharibə etmiş və bir neçə dəfə qalib gəlmişdir.

1408-ci ildə Sərdrud döyüşündə Qaraqoyunlu ordusu Teymuri ordusu ilə üz-üzə gəlmiş, Miranşah bu döyüşdə öldürülmüş, Əbu Bəkr isə qaçaraq canının qurtarmışdır. Bu döyüş ilə Teymurilərin Azərbaycanda ağalığına son qoyulmuşdur. Lakin sonrakı dövrlərdə Qara Yusif əraziləri oğullar və komandirlər arasında böldüyü üçün tədricən qaraqoyunlu ordusunun bütövlüyünə xələl gəldi. Qara Yusifin hakimiyyətinin sonuna yaxın dövrdə ordunun sayının 30.000 artması ilə birlikdə türkmən boylarının və rəislərinin güclənməsi də nəzərə çarpırdı. Cahanşah zamanında ordunun nüfuzu mərkəzi hakimmyətin güclənməsi ilə əlaqədar olaraq

yüksəldi. Qaraqoyunlu ordusu dövrünün nəhəngi olan Teymuri ordusunu məğlub edə bilir. Cahanşahın başçılığı altında qaraqoyunlu ordusu "Xorasanın İncisi" adlandırılan Heratı işğal etdi.

Ağqoyunlu ordusu

Tarixdə əsl adı Bayındırlılar olan Ağqoyunlular XV əsrdə öz dövlətlərini yaratmağa nail olmuş türmən tayfalarından biri idi. Ağqoyunlu ordusunun təməli piyada və süvarilərdən ibarət idi. Süvari birliklər Bayındırlılar başda olmaqla türkmən tayfalarından toplanırdı. Qara Yuluq Osmən bəy zamanında əsası qoyulan bu qayda ordu təşkilatının artıq yaradılmasını sübut edir. Osman bəy həm hərbi sərkərdə, həm də dövlət başçısı funksiyasının yerinə yetirirdi. Ordu idarəçiliyində onun ən yaxın köməkçiləri oğulları, qohumları və bəylər idilər. İlkin Ağqoyunlu ordusunun taktikasında basqin və düşməni yoraraq məğlub etmək əsas idi. Buna vur–qaç deyilirdi. Orduda ən cox istifadə edilən silahlar ox və qılınclar idi. Bunlardan əlavə mizraq, qalxan və gürz də istifadə olunan silahlar içərisində idi. Ağır ox atma aləti və mancanaq kimi mühasirə alətlərinə hələ Osman Bəyin hakimiyyətinin son dövrlərində sahib olmuşdular.[1]

Ağqoyunlu ordusunda sarayı və hökmdarı qoruyan, onu resmi günlərdə müşayiət edən xüsusi birliklər də var idi. Xassə ordus adlan bu birliklərin tərkibi zierhli atlılar, oxçular və qulluqçulardan ibarət idi.[2]

Ağqoyunlu hərbi qüvvələrinin əsasında duran birliklərdən digəri Tiyullu əsgər birlikləri idi. Bunlar osmanlı ordusundakı "timar sahibləri"nə bənzəyən bu birlikər onlara xidmət müqabilində ayrılmış torpaq sahələrindən gələn gəlir ilə yaşayırdılar. Tiyullardakı bu türkmən mənşəli köçəri əsgərlər bir müddət sonra əkinçiliklə daha çox məçğul olmağa başlamış və getdikcə döyüşmülük xüsusiyyətlərini itirmişdilər kio bu vəziyyət də Ağqoyunlu dövlətinin zəifləməsinə səbəb olmuşdur.[3]

Ağqoyunlu ordusunda üçüncü əsas qüvvə köməkçi qüvvələr idi. Bu qüvvətlər əsasən Gürcülər, Şirvanşahlar, Qaramanlılar və bəzi kürd qəbilərindən təşkil edilirdi. Bu qüvvələr Otluqbeli döyüşündə bu birliklərdən istfadə olunmuşdu. [4] Çox güman ki,Ağqoyunlular bu cür ordu hissələri təşkil etməyi Osmanlılarldan əxz etmişdilər. Ağqoyunlu ordusu Uluğ qol (mərkəz), sağ cinah və sol cinah olmaqla üç əsas qola ayrılaraq döyüşürdü Mərkəzə hökmdar özü, qollara isə şəhzadə və böyük əmirlər rəhbərlik edirdi. Ordunun müharibə üçün toplanma yeri Təbriz idi. Orduda geyim də mühüm əhəmiyyət kəsb edirdi. Süvarilər qılınc və oxlara davam gətirə bilmək məqsədilə keçə və ipək paltara üstünlük verdirdilər. Dizlərini və başlarını qorumaq üçün dizlik və başlıq mövcud idi. Atları da qalın parçalar ilə örtürdülər. Ən çox at ve dəvəyə üstünlük verilirdi. Tədqiqatlarda göstərilir ki, Ağqoyunlu ordusunda 30.000 baş dəvə, 20.000 baş at, 5.000 baş qatır, 2.000 baş eşşək var idi.

Ordu əmirlərini elan edilməsi,əsgər çağırılması və toplanla yerlərinin elan edilməsi üçün "Tavacı" adı verilən ordu qulluqçuları yerinə yetirirdi. Onlar bütün əsgərləri bir dəftərə yazırdı. Beləliklə, əsgər siyahısı da hər zaman bilinirdi. Ağqoyunuların hərbi qüdrəti və taktikası 1473-cü il avqustun 1-də Malatya döyüşündə üzə çıxır. Konstantinipol kimi bir şəhəri xristiyan dünyasında alan Cahan fatehi olan II Mehmet ağqoyunlulara məğlub olur.

---

**[1].İlhan Erdem. "Ak-Koyunlu Ordusunu Oluşturan İnsan Unsuru". A.U DTCF Dergisi. XV/26. 1991, s. 90 vd.; W. Hinz, Uzun Hasan ve Şeyh Ciineyd. Neşr.: T. Bıyıklıoğlu, Ankara 1948, s. 91-99.**

**[2]. Devvani. Amıanıe M. TM .• S. 5. İstanbuL. 1913, s.303; Minorsky, Review, s. 159-163.**

**[3] Minorsky, Review, s. 167**

**[4] Erdem, Otlukbeli, s. 52**

**Məqalənin aktuallığı.** Azərbaycan tarixşünaslığında Qaraqoyunlu və Ağqoyunlu dövlətlərində ordu quruculuğu məslələri bu vaxta qədər çox geniş işıqlandırılmamışdır. Məhz bu məqalənin də aktuallığı Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ordu quruculuğunun işıqlandırılmasından ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik isə onunla bağlıdır ki, tədqiq edilən məsələlər Azərbaycan tarixinin məzmununa bir töhfədir. Məqalədə irəli sürülən məsələlər Vətən tarixinin elmi məzmununu yetərincə zənginləşdirəcəkdir.

**Məqalənin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən məsələlərdən tarix müəllimləri və tarixçi tədqiqatçılar, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər

## Ədəbiyyat

1. Devvani. Arzname M.T.M., S. 5, İstanbul, 1913.
2. Ebu Bekr-i Tihrani. Kitab-ı Diyarbekriyye (KD), neşr: N. Lugal- Faruk Sümer, Ankara 1962-64.
3. Faruk Sümer. Kara-Koyunlular, lA., VI.
4. Faruk Sümer. Kara-Koyunlular, Başlangıçtan Cihan Şah 'a Kadar, i. ci lt, T.T.K. Yay., Ankara 1984.
5. Hafız Ebru. Zübdetü 't-Tevarih, Neşr: Seyyid Kemal Hac Seyyid Cevadi, Tahran 1372.
6. Hinz, Uzun Hasan ve Şeyh Cüneyd. Terc.: T. Bıyıklıoğlu, Ankara 1948. i.
7. Hakkı Uzunçarşılı. Osmanlı Devlet Teşkilatına Med/wl, Ankara 1984.
8. İlhan Erdem. "Ak-Koyun lu Devletinin Kuruluşu, Kara Yülük Osman Bey'in Hayatı ve Faaliyetleri, DTCF Dergisi, XXXIV/42, 1990.
9. İlhan Erdem. "Ak-Koyun lu Kaynaklarına Göre Otlukbeli (Başkent) Savaşı", A.Ü. OTAM Dergisi, S.4, 1993.
10. İlhan Erdem. "Ak-Koyunlu Ordusunu Oluşturan İnsan Unsuru", A.Ü. DTCF Dergisi, XV/26, 1991.
11. J.E Woods. 300 yıllık Türk imparatorluğu Akkoyunlu, (çev. S.Özbudun) İst. 1993.
12. Minorsky A. Civil and Military Review in Fars in /474, BSOAS, London 1939.
13. T'ovma Metsobetsi'i's. History o/Tamerlane and His Successors, İng. Çev. R. Bedrasian, New York, 1987.
14. Z.V. Togan. Umumi Türk Tarihine Giriş, İst., 1981 (3. Baskı).

**Дж. Мурсалли**

## Формирование армии в государст Каракоюнлу и Аккоюлу

## Резюме

Турки с древних времен могли управлять не только собой, но и другой народами. Владением навыками управления они обязаны своей армии. В конце средних веков государства Каракоюунлу и Аккоюнлу воевали друг с другом и другими государствами, рассматривая эти сражения мы видим дисциплины, тактики и стратегии тюрков.

**J. Mursalli**

## Army building in states of Kharaqoyunlu and Aggoyunly


## Summary

Turks possessed experience of occupation of a manager and in the meanwhile govern the other nations from the beginning of their existence. Turks owe their own armies for the basis of this governance. Near to the end of middle ages, the Kharaqoyunlu and Aggoyunly troops were fighting both against each other and the other states by develoing and making live forces organizatin, tactics and strategy of the states of Turks, had lived before them.


**Redaksiyaya daxil olub:** 05.05.2018